# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **263/2** **26 may 2015-ci il**

**Auditorların (auditor təşkilatlarının) 2014-cü il üzrə reytinq səviyyəsinin müəyyən edilməsi haqqında**

"Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyası"nın VI fəslinin 16-cı bəndinə və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 16 dekabr tarixli 258/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.19 «Auditorların reytinq səviyyəsinin müəyyən edilməsi» bəndinin icrası ilə əlaqədar, sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/4 saylı qərarına müvafiq olaraq təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. «Auditorların (auditor təşkilatlarının) 2014-cü il üzrə reytinq cədvəli» təsdiq edilsin.
2. «Auditorların (auditor təşkilatlarının) 2014-cü il üzrə reytinq cədvəli»nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**